**2 epik yarımfinaldan sonra “Uembli” Avropa çempionatının sonuncu və həlledici matçına hazırlaşır. Əlamətdar olan isə budur ki, bu final tarixdə ilk dəfə İngiltərənin iştirakı ilə keçəcək. 1966-cı il Dünya çempionatında doğma meydanda ilk qələbəsindən sonra İngiltərə beş dəfə böyük beynəlxalq turnirlərin yarımfinalından bir addım o tərəfə keçə bilməyib: 1968 və 1996-cı il Avropa, 1990 və 2018-ci il Dünya çempionatlarında, həmçinin 2019-cu il Millətlər liqasında. Avro – 2020-nin pley-off turlarında ingilislər növbə ilə Almaniya, Ukrayna və Danimarka ilə oyunlarda qalib gəldilər və bu gün turnirin çempionluğa ən iddialı klubu ilə “Uembli”də finalda qarşılaşacaqlar.**

# İki epik yarımfinaldan sonra “Uembli”də möhtəşəm final



İngiltərə millisinin “Uembli”dəki sonuncu super statistikası və Qaret Sautqeytin komandasının tərəqqisi ingilis azarkeşlərində xüsusi bir coşquya səbəb olub. Danimarka millisi ilə oyunda televiziya ekranlarından bütün dünya bunu diqqətlə izlədi. O dəstəyi heç zaman unutmayacaqlarını bildirən Cordan Henderson deyir: “Biz bu gün olduqca çoxlu insanı sevinməyə məcbur etdik, lakin azarkeşlərin dəstəyi heyrətamiz idi. Onlar fantastik idilər, bizi irəliyə qovurdular, xüsusilə overtaymda. Beləcə biz qələbə topunu vura bildik”.

Kim də bilməsə, Cordan azarkeş dəstəyinin İngiltərə futbolçuları üçün necə böyük əhəmiyyət kəsb etdiyini çox əla bilir. Məhz azarkeş dəstəyi futbolçulara uzun müddətdən sonra uğursuzluq zolağını dəf edərək, daha böyük bir beynəlxalq turnirin finalına yüksəlməyə kömək edib. Futbolçusu olduğu İngiltərənin “Liverpul” klubu 2019-cu ildə UEFA Çempionlar Liqasının yarımfinal matçında “Nou Kamp”da “Barselonaya 3 – 0 məğlub olandan sonra, doğma “Enfild”də məhz tamaşaçıların fantastik dəstəyi ilə rəqiblərini 4 – 0 məğlub edərək finala yüksəliblər.





Amma “Enfild” elə “Enfild” olaraq qalır. İngiltərə milli komandası isə 2007-ci ildən artıq yeni “Uembli”də oynayır. Baş məşqçi Qaret Sautqeyt Danimarka millisi üzərində qələbədən əvvəl diqqət çəkən maraqlı bir fikir söyləyib: “Yeni arenanın hələlik elə bir tarixi yoxdur. “Uembli”nin fantastik tarixi var, buna şübhə ola bilməz, lakin yaşlı azarkeşlərin xatirələrinin əksəriyyəti köhnə stadionla bağlıdır”. Həmin müsahibəsində Sautqeyt yetirmələrini yeni stadionun tağı altında “yeni tarixi anlar” yaratmağa çağırdı. Komanda da görünür öz ustadının arzusunu eşitdi. Bu gün çempion titulunu qazanmağa və 1966-cı ildə əvvəlki stadionda ingilislərin qazandığı uğuru təkrarlamağa cəmi bir addım qalır.

Qeyd edək ki, ingilislər danimarkalılarla overtayma 1 – 1 hesabı ilə başladılar və yaşlı azarkeşlər yəqin ki, komandalarının qələbəsinə şübhə edirdilər. Çünki İngiltərə yığma komandası əsas vaxtın məhz belə hesabla başa çatdığı 1990-cı il Dünya, 1996-cı il Avropa və 2018-ci il dünya çempionatlarının yarımfinallarında həmişə uduzub. Lakin həmin tarix dəyişdi və bu dəfə İngiltərə millisi əzmkar oyunu ilə azarkeşlərinə hədsiz sevinc və qürur hissi yaşatdı. Bununla bağlı fikirlərini bölüşən millinin müdafiəçisi Con Stounz deyir: “Biz hamımız İngiltərə yığma komandasını sevirik. Biz azarkeş kimi böyümüşük. Biz bununla fəxr edirik. İnsanlar deyəndə ki, oyunlara baxmaq və bizim ölkəni necə təmsil etməyimiz onların xoşuna gəlir, hamımız üçün bu, xüsusi bir məqama çevrilir. Fikirləşirəm, oyunçu kimi biz bununla fəxr etməliyik”. Stounz həmçinin öz ustadlarının komanda üçün gördüyü işi də yüksək qiymətləndirib: “Fikirləşirəm,Qaret bizim komandada heyrətamiz bir atmosfer, ağlasığmaz bir mütəşəkkilik və təmkinlilik yaradıb, bu insan və məşqçi kimi onun keyfiyyətidir”.

“Skuadra Adzurra”nın baş məşqçisi Roberto Mançinidən onun komandasının “Uembli”dəki möhtəşəm azarkeş çoşqusundan narahat olub-olmadığını soruşanda məşqçi deyib: “Nə danışırsınız, biz onlara təzyiq göstərməliyik. Əlbəttə matçı sona qədər oynamaq lazımdır”.

İtaliya millisinə gəldikdə isə bu komandanın Avropa çempionatı tarixində dördüncü finalıdır. “Skuadra Adzurra” 1968-ci ildə çempionluq titulunu qazandıqdan sonra, 2000 və 2012-ci illərdə final qarşılaşmalarında məğlub olub. Lakin, o vaxtdan İtaliya



millisi dörd Dünya çempionatından ikisində qalib kimi adını tarixə yazıb. Yarımfinalda Roberto Mançininin yetirmələri oyundan sonrakı 11 metrlik cərimə zərbələrində İspaniya millisini turnirdən kənarlaşdırdılar. Lakin bu, formal olaraq 13 oyunluq qalibiyyət seriyasına son qoydu, amma “Skuadra Adzurra”nın 33 oyunluq məğlubiyyətsizlik seriyası davam etməkdədir. Yeri gəlmişkən, bu göstəriciyə görə rekord 35 məğlubiyyətsizlik seriyası ilə Braziliya və İspaniyaya məxsusdur.

Həqiqətən, yarımfinala çıxan İngiltərə millisindən fərqli olaraq 2018-ci il Dünya çempionatının final mərhələsinə belə yüksələ bilməyən komanda üçün heyrətamiz nəticədir. Lakin unutmaq olmaz ki, Dünya çempionatını buraxan Çexoslavakiya 1976-cı il, Danimarka 1992-ci il, Yunanıstan isə 2004-cü il Avropa çempionatlarının qalibləri olublar.

Komandaların öz aralarındakı matçlara gəldikdə isə qeyd etməliyəm ki, onlar yaşıl meydanlarda 27 dəfə qarşılaşıblar. İngiltərə 8 dəfə qalib gəlib, 8 heç-heçəyə nail olub, İtaliya isə 11 dəfə qarşılaşmada qalib ayrılıb. İlk səkkiz qarşılaşmada italyanlar bir dəfə də olsun qalib gəlməyiblər. İngiltərənin isə son 7 oyunda cəmi bir qələbəsi var. Avropa çempionatının son iki turunda ingilislər italyanlara uduzaraq mübarizədən kənarda qalıblar. 1980-ci il Avropa çempionatında Marko Tardellinin yeganə qolu İtaliyaya minimal qələbə qazandırıb, Avro – 2012-də isə “Skuadra Adzurra” penal zərbələrində qalib gəlib.

Yeri gəlmişkən, İtaliya heç zaman böyük turnirlərin final matçlarında İngiltərəyə məğlub olmayıb. Avrodakı qələbə ilə yanaşı, “Skuadra Adzurra” Dünya çempionatlarında iki dəfə 2 – 1 hesabı ilə ingilisləri məğlub edib: 1990-cı ildə 3-cü yer uğrunda və 2004-cü ildə qrup mərhələsində.

İtalyanlar son hazırki Avropa çempionatının yarımfinalında əsas vaxtdan və overtaymdan sonra vurulan 11 metrlik zərbələrdə İspaniya millisini məğlub etdilər. Amma etiraf etməliyik ki, Luis Enrike bu qarşılaşmada Roberto Mançinidən üstün oldu, sadəcə italyanların təcrübəsi onlara ispanlarla bərabər oynamağa imkan verdi.

İngilislərin yarımfinalını isə elə də çətin oyun adlandırmaq doğru olmazdı. Buna baxmayaraq, oyun insidentsiz ötüşmədi. Mübahisəli hakim qərarı ciddi tənqidlərə səbəb oldu. Lakin bu oyunda Qaret Sautqeytin yetirmələri ilk dəfə topu öz qapı torlarından çıxarmalı oldular. Deməli, ingilis komandasının da müdafiəsində boşluqlar var və Mançini bunları mütləq diqqətdə saxlayacaq. Oyun öncəsi Mançini rəqiblə bağlı mövqeyini belə şərh edir: “Biz çox diqqətli olmalıyıq, lakin həmçinin oyundan zövq almalıyıq, çünki bu futbol matçıdır. Siz gərginsiniz və stress keçirirsinizsə futbol oynaya bilməzsiniz. Bizə rəqibə təzyiq göstərmək lazımdır, lakin, eyni zamanda, bundan ləzzət almalıyıq, bu finalı udmağın yeganə yoludur”.



Ümumiyyətlə, bugünkü finaldan nə gözləmək olar? Analitiklər və ekspertlər komandaların şanslarını bərabər qiymətləndirir və matçda elə də çox qol vurulmayacağını bildirirlər. Hətta bukmeyker kontoralarının ekspertləri belə matçın favoritini göstərməkdə çətinlik çəkirlər. Amma oyunun son dərəcə emosional, gərgin və baxımlı keçəcəyinə şübhə yoxdur. Finalın taleyini bir qol da həll edə bilər.

İngiltərə evdə oynayır və tarixdə ilk dəfədir ki, Avropa çempionatının finalına çıxıb. Böyük Britaniya Krallığında hamı onlardan qələbə gözləyir. Doğrudur, ilk dövrlər Sautqeyti həddən artıq praqmatik oyun nümayiş etdirdiyi üçün tənqid edirdilər, lakin o, komandanı finala çatdıra bildi. İtaliya isə bütün turnir boyu həqiqətən gözəl oyunu ilə futbolsevərləri heyran etdi. Lakin Mançininin yetirmələri İngiltərə milli komandası kimi güclü bir rəqiblə öz oyununu nümayiş etdirə biləcəkmi? İspaniya ilə “Skuadra Adzurra” arasındakı matçda qol vəziyyətlərinin statistikasına görə, “qırmızı furiya” qələbəyə daha çox şanslı idi, lakin bəxt italyanların tərəfində oldu. “Skuadra Adzurra” yenə bəxtə bel bağlaya bilərmi?

İtaliyalı müdafiəçi Leonardo Bonuççi finalla bağlı gözləntilərini UEFA-nın saytına müsahibəsində belə açıqlayıb: “İngiltərənin çox güclü hücumçuları var: cinahlardan çıxış sürətli və mərkəzdə çox əzəmətli. İstər Keyn və ya Kalvert-Lyuin olsun. Keyn son matçlarda qarşılaşdığımız hücumçular kimi dünyanın ən güclülərindən biridir. Turnir başlayanda mən dərhal dedim ki, İngiltərə qələbəyə favoritlərdən biri olacaq”.

Amma bütün bunlar o anlama gəlmir ki, italyanlar artıq indidən təzyiq altındadırlar. Komanda yalnız qələbə əzmi ilə meydana çıxacaq. İtaliya millisi üzrə müxbir Paolo Menikuççi komandasının psixoloji cəhətdən bu qələbəyə kökləndiyini bildirərək deyib: “İspaniyaya qarşı yarımfinal qarşılaşması bu turnirdə İtaliyanın yaxşı matçı olmadı. Lakin onun bir aspekti məni mütəəssir etdi. Elə təəssürat yarandı ki, yığma komanda heç bir təzyiq hiss etmədi. Hətta iş 11 metrlik zərbələrə çatanda belə, futbolçular zarafat edir və gülürdülər. Ola bilər futbolçular artıq yenidən bütün İtaliyanın sevgisini və dünyanın hörmətini qazandıqlarını hiss etməyə başlayıblar. “Uembli”də İngiltərə millisi ilə Avronun finalında qarşılaşmada bundan yaxşı nə ola bilər”.

İngiltərə millisinin də əhvalruhiyyəsi çox yüksəkdir. Komandanın baş məşqçisi Qaret Sautqeyt deyir: “Biz finala çıxdığımıza görə çox şadıq, lakin qarşıda daha bir ciddi sədd var. Hesab edirəm İtaliya son illərin çox güclü komandasıdır. İtalyanlar heyrətamiz formadadırlar və onların, artıq hər şeyi görmüş çox təcrübəli müdafiəçiləri var. Çox maraqlı oyun olacaq”.

Komandanın əsas qol “silahı” Harri Keyn “Goal.com” saytına verdiyi müsahibəsində yoldaşlarının bu şansı əldən verməmək üçün hər şeyi edəcəklərini bildirərək deyir: “Bizim ölkə tarixində ikinci titul qazanmaq üçün möhtəşəm şansımız var. Belə məqamlar haqqında uşaq yaşlarından düşünürsən –öz ölkəni təmsil edərək kuboku yuxarı qaldırırsan. İndi bizim bu imkanımız var”.

Yəqin ingilislər məşhur “Three Lions” (“Üç şir” ) mahnısında azarkeşlərin ümidlərini əks etdirən bir misranı turnir boyu xatırlayıblar: “İngiltərə fürsətdən istifadə etmir, İngiltərə hər şeyi itirəcək”. Amma bu dəfə itirmək fikrində deyil. Çünki, məhz tribunaların ifa etdiyi bu mahnının sədaları altında İngiltərə millisi overtaymda Danimarka komandasının qapısına hücum edirdi. Hücum edirdi ki, oyunu “lotereyanın” – 11 metrlik zərbələrin ümidinə qoymasın. Bu istəklə də Harri Keyn qələbəni təmin etdi.

İndi qarşıda İtaliya var. “Final. Evdə. Bu inanılmazdır”, – deyə Keyn final fitindən sonra qeyd etdi. Amma bir tarixi həqiqət də var ki, ev finalı heç də həmişə üstünlük gətirmir. Fransa 5 il əvvəl Parisdə Portuqaliyaya uduzub, Portuqaliya özü Avro–2004-də evdə uduzub. Öz meydanlarında yalnız iki komanda çempion ola bilib: 1964-cü ildə İspaniya və 1984-cü ildə Fransa. Görəsən, İngiltərənin bu yığma komandası yeni “Uembli”də futbolda öz yeni şərəfli tarixini yaza biləcəkmi?! Bu gün bu suala “Uembli”də cavab tapacağıq...



*İlqar RÜSTƏMOV,*
*“Xalq qəzeti”*